Mən Yardımlı elinin "Bəylər kəndi" kimi tanınan Gilar kəndində 26 mart 1937-ci ildə Sultanlı ailəsində doğulmuşam. Avtobioqrafiyam təkcə uğurlarımdan ibarət deyildir. Bu, həm də həyat yolumda başıma gələnlərin, rastlaşdıqlarımın kiçicik bir hissəsini əhatə edir. Onlardan vaz keçib yalnız uğurlarımdan danışmaqdan da vaz keçirəm.




# Avtobioqrafik xırdalıqlar

Doğulub boya-başa çatdığım, ulularımın uyuduğu yer Azərbaycan Respublikası Yardımlı elinin Gilar kəndidir. Gilar Yardımlıdan 12 kilometr aralıda yerləşir. Bu kəndin ərazisində uşaqlıq çağlarımda sıx, əngin meşələr vardı bu meşələrə girən şəxs geri qayıtmağa yol tapa bilməzdi. Dağlarda, dərələrdə addımbaşı bulaqlar çağlayardı, sel-su səsi dərələrdən əksik olmazdı. Sərt dağlar, sıldırım qayalar, dərə-təpələr kəndimizi sarmışdı. İlin fəsillərinin əvəzlənməsi kəndimizdə aydın duyulardı. Erkən yazda hər tərəf yaşıllığa bürünərdi.

Yazın gəlişi ilə əriməkdə olan qarın altından bənövşələr boynubükük görkəmdə boylanardı, nərgizlər şux görkəmdə üzə çıxardı. Yamyaşıl çöllərə, çəmənliklərə, zəmilərə lalələr, nərgizlər, rəngbərəng güllər, çiçəklər ardbaard səpələnərdi. Yaz axşamları sürülər örüşdən qayıdanda qoyunquzu mələrtisi kəndi başına götürərdi, uşaqlar öz qoyun-quzusunu aparmaq üçün bir-birini səsləyə-səsləyə kəndin girəcəyində sürünü qarşılamağa qaçışardı, kənddə xüsusi canlanma yaranardı. Yamaclarda kəklik sürüləri, alabaxtalar, qayalarda göyərçinlər, zəmilərdə torağaylar, bildirçinlər, sığırçınlar, ağac budağında sərçələr, qaratoyuqlar... insanın ovqatını yeni məqamlara kökləyərdi. Uşaqlar yazbaşı, payızöncəsi axçamçağılar, gün sallananda, kəndin ortasında yerləşən, kəndin hər yanı görünən, tonlarla ağırlıqlı daşların düzüldüyü "Alduz Kalou" adlı yerinə yığışıb "çilingağac", "qayışgötürdü", "yoldaşım, səni kim apardı"... oyunları oynayardılar. Bəzən bu oyunlara böyüklər də qoşulardılar. Böyüklərin qoşulması oyunları daha da maraqlı edərdi.

Belə oyunlar "Bahar Bayramı" ərəfəsində coşğun, qızğın keçərdi. "Bahar bayramı"nda həm də "yumurtadöyüşdürmə", küldə, ya da narın torpaqda "bu mənim, bu sənin..." oyunları oynanılardı. Hamı mütləq təzə paltar, hamının üzündə sevinc parlayardı. Bayram günlərində görmək üçün iş saxlamazdılar, geyinərdi bayramda iş görməzdilər, görülən işi də haram sayardılar. Uşaqlar baharın ilk günlərində yamaclardan, kol dibindən bənövşə, nərgiz yığmağa gedərdilər. Yaz fəsli özü ilə göy gurultusu, ildırım çaxması, yağışlar, gur sellər, havanın qızmasını, gül-çiçək, yaşıllıqlar, meyvə-tərəvəz, insanlara şən ovqat gətirərdi. Hamı çöldə-bayırda təsərrüfat işləri ilə məşğul olardı, yazın gəlişinin doğurduğu gözəlliklərdən zövq alardı. Yay fəsli güclü istilik, məhsul yığımı, qış tədarükü üçün şərait gətirərdi. Yaz-yay aylarında çöldə əsən məh gül-çiçək ətrini hər tərəfə yayardı. Çöl-bayırda olanda adam özünü ətriyyat dükanındakı kimi hiss edərdi.

Payız fəsli yağmurlu olardı, yağış heyvanlardan, həşəratlardan, quşlardan, əkin-biçindən yerə səpələnmiş gübrə təbiətli qalıqları torpağa hopdurardı, bundan sonra əkin başlayardı. Qış vaxtı hər tərəf qara bürünərdi, qarın hündürlüyü çox zaman 70-80 santimetrə çatar, bir çox yerlərdə hətta 100 santimetr olardı. Belə şəraitdə xəstəlik daşıyıcıları tələf olardı, təbiət saflaşardı. Belə şərait insanların bir-birinə ehtiyacını, bir-birinə simsarlığını artırardı, gecələr onların bir evə yığışıb nağıllar danışmalarına, şirin-şirin söhbətlər etmələrinə səbəb olardı. Kəndin yaxınlığından axan Gilar çayı payızda, yazda özünü yan-yörəyə çırpa-çırpa "cilov gəmirərdi", onun şırıltısı kənddə səksəkəli ovqat yaradardı. Bunlar o çağlar mənim də arzularımın çağlamasında az rol oynamamışdır...

Mən kiçik yaşlarımda olarkən Atam Yunus Kərbəlayi Sultan oğlu Məmmədova Yardımlı rayon Hərbi Komissarlığı İkinci Dünya Savaşına 26 fevral 1942-ci ilində yola saldı. O, savaş zamanı sovet dövləti, rus xalqı haqqında əks təbliğat aparmaqda, qolçomaq ulusundan olmaqda, imkan tapanda Türkiyəyə keçmək planı qurmaqda, sovet ordusunda sabotaj səciyyəli əməllər törətməkdə suçlandırılaraq "xalq düşməni", "əksinqilabçı" adıyla 8 iyul 1942-ci ildə həbs edilərək güllələnib? Ailəsi isə uzun müddətə sürgün edilmişdir. Atam rusları, onların hökumətini qəbul etməyib, odur ki, əslində, ona xidmət etməkdən imtina edib. Təəssüf ki, Atamın "xalq düşməni", "əksinqilabçı" adıyla güllələnməsini məzmununa görə yaxşı başa düşməyib, düzgün anlamayıblar. Belələri sovet dövlətinin süqutundan sonra da olmuşdur və indi də var. Onlardan bəziləri Atamın əvladlarına Atalarının "xalq düşməni", "əksinqilabçı" xidmət etmişlər.

Rus-alman Savaşı gedə-gedə rus ordusunu sabotaj edən, sovet dövləti, rus xalqı haqqında əks təbliğat aparan şəxs necə Azərbaycan xalqının düşməni sayıla, rus xalqına xidmət edən, onun dövlətinin saxlanmasına tərəfdar olan şəxs isə dostu ola bilər? Göründüyü kimi, əslinə qalsa, Atam Yunus rus xalqının düşməni, öz xalqının dostu olmuşdur. Bu, adi, sadə məntiqdən doğan doğruçuluqdur. Atamın güllələnməsinin şahidi olmuş əslən Yardımlının kəndimizin qonşuluğundakı Vəlişli kəndindən olan Qəyibqulu adlı şəxs əsgərlikdən qayıdandan sonra əmim Abdulla və qardaşım Hüseyinağa onun yanına gedərək Atam haqqında sorğu-sual etdikdə öyrənir ki, Atamın üzünə elə, həmin Qəyubqulu durub. Atamın "əksinqilabçı", "xalq düşməni" olduğunu vaxtaşırı üzə vurmuşlar və hazırda da üstüörtülü üzə vurmaqdadırlar. Belələri arasında elə adam olmuşdur ki, ömrü boyu xalqımıza düşmən kəsilmiş bir xalqa-ruslara və onların dövlətinə xidmət etmişlər. Yuxarıda dediyim o Qəyibqulunun əmimə və qardaşıma verdiyi bilgiyə görə, Atam əslən Yardımlının Vərgədüz kəndindən olan Yunus Bala oğlu Ağayev adlı bir əsgərlə "əlbir olaraq" rus xalqının, onun cəlladı olan sovet qurulușunun əleyhinə təbliğat aparmış, bəy nəslindən olduğu sübut olunmuşdur. Fövqəladə Hərbi Cinayət işlərinə baxan Hərbi Məhkəmə bu halı "xalq düşməni", "əksinqilabçı" əməli kimi qəbul etməsinə "əsas" götürmüşdür. Bəy törənindən olduğunu şahid Qəyibqulu bildirmişdir. Buna görə də Atam Yunus Məmmədovu və Yunus Ağayevi güllələnməyə məhkum etmiş, şahid qismində olan Qəyubqulunu isə müddətdən qabaq evə buraxmışdır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikası Ali Məhkəməsi "Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" 15 mart 1996-cı il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci və 2-ci maddələrinin əsas tutaraq 2 avqust 2008-ci ildə AtamYunus Məmmədovu, onun ailə üzvlərini (arvadını - Güləndam Kərbəlayi Şahüseyin qızı Məmmədovanı, oğlanları - Bəhməni, Əlbəndəni; qızları - Mirvarini, Mənsumanı) siyasi repressiya qurbanları kimi tanımaqla onlara tam bəraət vermişdir. Atam əsgərliyə yollananda uşaq olmuşam, deyilənə görə, o, məni çox istəyib. O, əsgərliyə qonşuluqdakı Cerimbel kəndindən yola salınıb. Bu zaman məni də onunla vidalaşmağa aparıblar. Yola düşəndə mən onun yaxasından yapışıb buraxmamışam. Atam deyib, bibin gilə gedirəm, sabah qayıdacağam. Bu sözünə inanmışam, yaxasını buraxmışam, o, yola salınıb.

Anam Güləndam Kərbəlayi Şahhüseyin qızı Məmmədova 12 dekabr 1942-ci ildə "xalq düşməni"nin, "əksinqilabçı"nın arvadı olduğu üçün 4 azyaşlı əvladı ilə birlikdə Novocibirskə sürgün edilib. Dayım Mirhüseyin Hüseyinob bacısı oğlu Hüseyinağa ilə birlikdə bizim sürgündən azad olunmağımız üçün Anamın öhdəsində üç azyaşlı uşağı olduğuna görə Bakıya gələrək Mərkəzi Komitənin Birinci Katibi Mircəfər Bağırova məktubla müraciət etmiş və 12 may 1943-cü ildə o, uşaqları ilə birlikdə sürgündən azad olunmuşdur.

Kəndimizdə ilk dəfə olaraq 1946-cı ildə ibtidai məktəb açılmışdır. Məktəbə əslən Masallı elinin Bədələn kəndindən olan Qulaməli Şahalı oğlu Qulamov adlı şəxs müəllim təyin olundur. Mən həmin il məktəbin birinci sinfinə götürüldüm. İbtidai məktəbi bitirib 3-4 kilometr aralıdakı Cerinbel kənd yeddiillik məktəbinin beşinci sinfinə götürüldüm. Qulaməli müəllim Gilar ibtidai məktəbindən çıxarılıb Cerinbel 7-illk məktəbinə direktor təyin olundu. Mən oxumaq həvəslisi olduğumdan, Qulaməli müəllim mənim oxumağımla ciddi maraqlanırdı. Qulaməli müəllim az müddətə mənim bacımla ailə qurdu. O, mənim dərslərimi, xüsusilə də, riyaziyyatı yaxşı oxumağıma çalışırdı. 10-12 yaşlarımda həm də kolxozda işləyirdim. Müdriklərin fikirlərindən ibarət şüarlar yazıb əkin-biçin sahələrində, gediş-gəliş yerlərində sancırdım.

1953-cü ildə Cerinbel yeddiillik məktəbini tərifnamə ilə bitirib Mirzə Fətəli Axundov adına Yardımlı orta məktəbinin 8-ci sinfinə qəbul olundum. İlk çağlarda mənə uzaq kəndlərdən gələn başqa uşaqlarla yanaşı məktəbin yataqxanasında yer verildi. Bu yataqxana İkinci Dünya Savaşının yetim qoyduğu uşaqlar üçün tikilmiş evdə yerləşirdi. Bir müddətdən sonra "xalq düşməni"-nin, "əksinqilabçı"nın oğlu olduğum yataqxanadan çıxarılmağıma səbəb oldu. Bununla, 12 kilometr məsafəni hər gün gedib-gəlməli oldum. Bu hal, sözsüz, dərs oxumağıma ciddi əngələ çevrildi. Payızın dumanlı-çiskinli günlərinin birində (o çağlar payız, yaz vaxtları belə günlər, qış vaxtı isə, qarlı-şaxtalı günlər çox olurdu) dərsdən çıxıb evə gedirdim. Hava qaranlıqlaşmışdı. "İstisu" adlanan yerdən kəndimizə gedən yolu dərə-təpələr və meşəlik müşayiət edirdi. Gilar çayı da şır-şırla axırdı. İstisu bulağının qənşərindən gedərkən üşənməyə başladım. Çayın keçdiyi dərəyə yaxın yerdə qulağıma Ağa əminin səsi gəldi, sonra kəsildi. Yan-yörəyə baxmadan kəndə sarı yüyürdüm. Səhər Ağa əmiyə bunları danışanda o, oralarda olmadığını bildirdi. Hər gün bu yolu gedib-gəlməyin nə demək olduğu buradan aydın olar.



**Bəhmən SULTANLI**

Doqquzuncu sinifdə oxuyayanda da bu yolu gedib-gəlməli olurdum. Bir gün dərsdən çıxanda qar yağırdı. Qar Yardımlıdan uzaqlaşdıqca daha da şiddətlənirdi. Gəlib kəndimizin 4-5 kilometrliyinə çatanda yol qarla örtülmüşdü, yolu fəhmlə görürdüm. Kolların da üstü örtüldüyündən, bəzən gedib kolun üstünə çıxırdım, yenidən fəhmlə yolu tapıb irəliləyirdim. Kəndə çatmağa təqribən iki-üç kilometrlik məsafə qalırdı. Hava da qaralmışdı. O zamanlar qurdun adam yediyi hallar da baş verirdi. Qorxmayım deyə, ətrafa da baxmadan gedirdim. Müəyyən qədər yol getdikdən sonra kəndə çatmağa az qaldığını zənn etdim. Yorulub əldən düşmüşdüm. Birdən gözüm yolun üstündəki yarğanda həmişə gördüyüm boz daşa sataşdı. Bu zaman daşın qopub üstümə gəldiyini zənn etdim. Elə bildim, daş sinəmə dəydi, arxam üstə aşıb qara batdım. Qarın altında bir vaxt ayılıb ayağa qalxdım, bir daha yarğandakı daşa tərəf baxmayıb yoluma davam etdim. Daha heydən düşmüşdüm, evə gedib çata bilməyəcəyim fikrimə gəlirdi, ancaq təslim olmaq istəmirdim, son nəfəsimədək qarı yara-yara irəliləməyə çalışırdım. Çiynimdə də kitab çantası vardı. Bir qədər getdikdən sonra güllə və adam səsi eşitdim. Kimi isə çağırmağa nə qədər çalışdımsa, səsim çıxmadı, fitlə yerimi bildirmək istədim, fit alınmadı. Üzümü yola doğru çevirəndə bir neçə adamın məni çağıra-çağıra, güllə ata-ata gəldiyini atılan güllənin işığı ilə gördüm. Yenə də bir neçə dəqiqədən sonra arxam üstə aşıb qara batdım, yenə ayağa qalxdım. Bu vaxt gələn adamlar məni əhatəyə almışdılar. Məni çiyinlərinə aldılar. Bundan sonra nə baş verdiyi yadımda qalmadı. Bundan sonra 40 gün xəstə yatdım. Bu zaman bir neçə gün özümdə olmadığımı, sayıqladığımı danışırdılar. Sağalıb dərslərə davam etdim.

*(Ardı var)*